

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 138 (21.039)

22 iyul 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunun ərazisində yerləşən "Norm" Sement Zavodunun açılışında iştirak edib.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına müəssisədə görülən işlər barədə məlumat verdi.

Qeyd edildi ki, "Norm" Sement Zavodu nəinki Azərbaycan, ümumilikdə, Cənubi Qafqazda sement istehsalı ilə məşğul olan ən böyük müəssisədir. Zavodun konsepsiyası işlənib hazırlanarkən onun uzun illər boyu məhsuldar və səmərəli istismarını təmin etmək məqsədilə müasir avadanlıq və texnologiyalardan istifadə edilib. Dünya miqyasında zəngin təcrübəyə malik mütəxəssislər və məsləhətçilərin iştirakı ilə bu sahədə ən son innovasiyalar araşdırılıb və mühəndis-layihələndirmə işləri nəticəsində zavodun iqtisadi səmərəliliyi təsdiqlənib.

Müəssisənin idarəetmə mərkəzində Prezident İlham Əliyevə ölkənin sement bazarındakı ümumi vəziyyət və zavod haqqında məlumat verildi.

Prezident İlham Əliyev zavodu işə saldı.

Zavodun fəaliyyəti ilə tanışlıqdan sonra dövlətimizin başçısı kollektivlə görüşdü.

Sonra dövlətimizin başçısı müəssisənin tikinti işlərini aparan Çin şirkətinin nümayəndələri ilə söhbət etdi.

Sonda xatirə şəkli çəkdirildi.

## Rabitə xidmətinin səviyyəsi yüksəldilir

*Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən aldığımız məlumata görə, muxtar respublika əhalisinə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə həyata keçirilən tədbirlər cari ilin ötən dövrü ərzində də davam etdirilmiş, bir sıra quruculuq işləri görülmüş, Şahbuz Rayon Rabitə İdarəsi üçün yeni bina istifadəyə verilmiş, Şahbuz və Babək rayonlarını əhatə edən 13 min 952 abunəçi tutumlu 38 ədəd yeni nəsil telefon stansiyaları quraşdırılmışdır.*

Bəhs olunan dövrdə "Naxtel" simsiz telefon şəbəkəsinin əhatəsinin genişləndirilməsi məqsədilə 5 yeni baza stansiyası istifadəyə verilmiş, "Naxtel" üzərindən qısa mesaj (SMS) xidmətinin göstərilməsi üçün avadanlıqlar qurulmuş, digər mobil operatorlarla SMS mübadiləsi təmin edilmişdir. Bundan əlavə, "Naxtel"in toplu SMS xidmət mərkəzi yaradılmışdır.

Məlumatda o da bildirilir ki, muxtar respublikada bütün yaşayış məntəqələrinin genişzolaqlı internetlə təmin edilməsi məqsədilə cari ilin ilk altı ayında Naxçıvan şəhərində EV-DO texnologiyası əsasında genişzolaqlı simsiz internet xidməti təşkil edilmiş, Babək rayonunun Zeynəddin, Ordubad rayonunun Vənənd, Culfa rayonunun Əlincə, Əbrəqunus, Milax və Ləkətağ, Şahbuz rayonunun Kolanı kəndlərində DSLAM avadanlığı quraşdırılmışdır. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 92 faizində genişzolaqlı internet xidməti təşkil edilmişdir. Bundan əlavə, Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrası davam etdirilir.

Bəhs olunan dövrdə muxtar respublikanın yaşayış məntəqələrində rəqəmsal televiziya yayımının təmin edilməsi istiqamətində də bir sıra işlər görülmüşdür. Bu məqsədlə 7 güclü, 30 azgüclü televiziya vericisi istifadəyə verilmişdir. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 94 faizində sosial paketdə olan 12 televiziya kanalının rəqəmsal yayımı təmin edilmişdir.

Cari ilin ötən dövrü ərzində Naxçıvan şəhərinin "İstiqlal" küçəsində 256, B.Abbasov küçəsində 512, Xətai məhəlləsində 320 və Qaraxanbəyli kəndində 512, Şərur rayonunun Alışar kəndində 448, Babək rayonunun Gülşənabad kəndində 256, Culfa rayonunun Yaycı kəndində 384 və Kəngərli rayonunun Qıvraq qəsəbəsində 160 nömrə tutumlu avtomat telefon stansiyaları istismara verilmiş, muxtar respublikada Elektron İmzanın Sertifikat Mərkəzi yaradılmış və "Elektron imza"nın tətbiqinə başlanılmışdır.

Məlumatda o da vurğulanır ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar internet saytı yaradılmış, buklet, poçt markası və zərf hazırlanmışdır.

Ümumi uzunluğu 240 kilometr olan Ordubad-Sədərək alternativ fiber-optik magistral kabel xəttinin tikintisi davam etdirilmiş, cari ilin yanvar-iyun aylarında muxtar respublikada, ümumilikdə, 63,2 kilometr uzunluğunda fiber-optik kabel xətlərinin çəkilişi həyata keçirilmişdir. Bu dövrdə muxtar respublikada 3311 ədəd yeni telefon sabit şəbəkəyə qoşulmuş, 1 iyul 2014-cü il tarixə hər yüz ailəyə düşən telefon aparatlarının sayı 67-yə çatmışdır.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ilin birinci yarısında muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 23 milyon 337 min manat olmuş, ümumi xidmətlərin 84,6 faizi mobil rabitə xidmətinin payına düşmüşdür.

*Muxtar respublikada aparılan tikinti-quruculuq tədbirlərinin bir hissəsini də dövlət qurumları üçün tikilən yeni inzibati binalar təşkil edir. Təşkilatlara normal iş şəraiti yaratmaq məqsədilə həyata keçirilən bu tədbirlərin həcmi və coğrafiyası getdikcə genişlənməkdədir.*

## Dövlət Miqrasiya Xidməti üçün yeni binanın tikintisi davam etdirilir



Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində inşasına ötən ildən başlanılan və hazırda tikintisi davam etdirilən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti üçün yeni bina yaxın gələcəkdə miqrasiya xidməti əməkdaşlarının rahat iş yerinə çevriləcəkdir. Tikinti işləri "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. İş icraçısı Cəfər Cəfərovdan aldığımız məlumata görə, bina zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir. Binanın hörgü və suvaq işləri başa çatdırılıb, pəncərələr və daxili qapılar salınıb, dam örtüyü vurulub. Hazırda binanın fasadı üzlük daşla üzlənir. Bina hazır olduqdan sonra zirzəmi hissədə qazanxana, arxiv, yeməkxana, mətbəx və idman zalı, bütün mərtəbələrdə iş otaqları olmaqla, üçüncü mərtəbədə tədris otağı, kitabxana və müşavirə zalı, beşinci mərtəbədə isə iclas zalı yerləşəcəkdir.

Tikintidə, əsasən, yerli tikinti materiallarından istifadə olunur.

## Nağdsız ödənişlərin aparılmasında fəallıq göstərən vətəndaşlara hədiyyələr təqdim olunub



*Dünən Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı tədbirdə hədiyyə qazanmış vətəndaşlara hədiyyələr təqdim olunub.*

Bu münasibətlə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası vergilər nazirinin müavini, vergi xidməti müşaviri Nurlan Əliyev açaraq nağdsız ödənişlərin aparılması sahəsində görülən işlərlə bağlı məruzə edib. Bildirilib ki, vergi və alıcılıq mədəniyyətini yüksəldən amillərdən biri də nağdsız hesablaşmaların həyata keçirilməsidir. Bu cür hesablaşmalarda əsas vasitə rolunu oynayan POS-terminallardan səmərəli istifadənin təmin edilməsi və nağd pul dövriyyəsinin həcminin azaldılması məqsədilə tədbirlər görülməsi, habelə nağdsız əməliyyatların üstünlükləri haqqında maarifləndirici tədbirlərin həyata keçirilməsi hazırda davam etdirilməkdədir. Görülən işlərin nəticəsidir ki, nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində 1 iyul 2014-cü il tarixə muxtar respublikanın ticarət və iaşə obyektlərində 646 ədəd POS-terminal quraşdırılıb ki, bunun da 398 ədədi cari ilin birinci yarısında tətbiq edilib. Qeyd olunub ki, qarşıya qoyulmuş tapşırıqlardan biri də əhalinin POS-terminallardan istifadə etməsi üçün müxtəlif həvəsləndirici tədbirlərin həyata keçirilməsidir. Satılan mallara, göstərilən xidmətlərə görə pul vəsaitlərinin nağdsız qaydada ödənilməsinin təmin olunması, bu işdə ictimaiyyətin gücündən istifadə edilməsi, beləliklə, vergidənyayınmanın qarşısının alınması məqsədilə altı ayda bir dəfə həvəsləndirici tədbirin keçirilməsi nəzərdə tutulub.

Tədbirdə Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundovun və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Rəşad Əliyevin çıxışları olub.

Bildirilib ki, 2014-cü ilin ilk altı ayı ərzində bank orqanlarından nağdsız ödəniş aparan şəxslər barədə məlumatlar alınıb və bir sıra amillər nəzərə alınmaqla hədiyyələrin seçilməsi meyarları təsbit olunub. Belə ki, 150 manatdan 501 manatadək nağdsız əməliyyat aparan şəxslərə (20 nəfər) təqdim olunan hədiyyələrin dəyəri 45-55 manat, 501 manatdan 1001 manatadək əməliyyat aparanlara təqdim olunan hədiyyələrin dəyəri 65-75 manat (34 nəfər), 1001 manatdan 2001 manatadək nağdsız əməliyyat aparan şəxslər üçün hədiyyənin dəyəri 75-100 manat (17 nəfər), 2001 manatdan artıq məbləğdə nağdsız əməliyyat aparan şəxslər üçün isə hədiyyələrin dəyəri 260 manat (5 nəfər) təşkil edib. Hədiyyə qazanmış şəxslərin 15 nəfəri təhsil işçisi, 6 nəfəri səhiyyə işçisi, 12 nəfəri hərbi və hüquq-mühafizə orqanları əməkdaşı, 4 nəfəri tələbə, 7 nəfəri müxtəlif təşkilatlarda çalışan texniki işçi, 5 nəfəri təqaüdçü, 26 nəfəri dövlət qulluqçusu, 1 nəfəri isə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsdir.

Sonra hədiyyələr sahiblərinə təqdim olunub. Nağdsız əməliyyatlara üstünlük verən vətəndaşlar tədbirin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

*Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi cari ilin ilk 6 ayı ərzində 392 ədədi ərzaq, 1286 ədədi qeyri-ərzaq olmaqla, cəmi 1678 ədəd məhsula uyğunluq sertifikatı verib.*

## Cari ilin ilk 6 ayı ərzində 1678 ədəd uyğunluq sertifikatı verilib

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən verilən məlumata görə, bunlardan 355 ədədi istehsal olunan məhsullara, 1323 ədədi xaricdən gətirilən məhsullara aiddir. Sertifikatların 289 ədədi milli, 307 ədədi dövlətlərarası, 1042 ədədi beynəlxalq standartlara, 32 ədədi təhlükəsizlik göstəricilərinə, 8 ədədi müəssisələr tərəfindən hazırlanmış texniki şərtlərə uyğun olaraq verilib.

Bildirilib ki, sertifikatların 39 ədədi kənd təsərrüfatı məhsullarına, 15 ədədi rabitə vasitələrinə, 70 ədədi avtomaşın ehtiyat hissələrinə, 3 ədədi qaz təsərrüfatında istifadə olunan sayğaclara, 1 ədədi qaz tənzimləyicisinə, 4 ədədi elektrik və 6 ədədi qaz qızdırıcılarına aiddir. 64 istehsal müəssisəsinə istehsal etdiyi sabit keyfiyyətli 137 adda məhsulu "AZS Milli Uyğunluq Nişanı" ilə nişanlamaq hüququ verilib. İki məhsulun köməkçi materiallarının müşayiətedici sənədləri və markalanması olmadığından, 2 müəssisədə istehsal olunan məhsul və 1 istehsalçı müəssisə tərəfindən idxal olunan xammal standartlara cavab vermədiyindən, 2 müəssisədə istehsal olunan 2 adda məhsulun markalanması texniki normativ-hüquqi aktların tələblərinə uyğun olmadığından uyğunluq sertifikatının verilməsi məqsədəuyğun hesab edilməyib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan: Qayıdışdan Qurtuluşa



***Ötən əsrin 80-ci illərinin sonlarında milli zəmində münaqişələr başlayanda Naxçıvan özünün ağır günlərini yaşayırdı. Sərhədyanı kəndləri erməni yaraqlıları tərəfindən hücuma məruz qalan, dincliyi əlindən alınan və blokadaya salınan Naxçıvanda iqtisadi və siyasi böhran daha da dərinləşmişdi. Belə bir dövrdə görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-cı il iyul ayının 22-də muxtar respublikaya gəlişi naxçıvanlılara böyük ümid və sevinc bəxş etdi.***

O dövrün mətbuatı yazırdı ki, əzablı və məşəqqətli günlərini yaşayan Naxçıvanı düçar olduğu ağır bəlalardan hifz etməkdən ötrü Tanrı dahi və müdrik insanı öz doğma yurduna xilaskar göndərmişdir. Sonralar ulu öndərimiz Heydər Əliyev bu barədə belə deyəcəkdi: ***"1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş".***

Ümummilli liderimizin Vətənə – Naxçıvana qayıdışı Azərbaycanı Azərbaycana qaytarmaq missiyasının başlanğıcı, istinad nöqtəsi olmuş, müstəqilliyimizin təməl daşları Naxçıvanda qoyulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin dövrü belə xarakterizə etmişdir: ***"Ölkəmizin taleyinin hərraca qoyulduğu, fəlakətə sürükləndiyi bir vaxtda səsini qaldıran, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdıran Heydər Əliyev və xalq amili bir daha fəal siyasi müstəvidə birləşdi. Xalqımızın böyük oğlunun qayıdışı Azərbaycan adlı parçalanmış, qan içində olan, 20 Yanvar faciəsinin məhrumiyyətindən özünə gəlməyə macal tapmayan, erməni yaraqlılarının hərbi müdaxiləsi, daxildə isə satqın rəhbərlərin xəyanəti ilə üzləşən yarımcan bədənə mənəvi ruh, bütövlük və tamlıq gətirdi".***

Naxçıvana gəldikdən qısa müddət sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq ümummilli lider Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürməklə muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz ulu öndərimizin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. Ümummilli lider 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçilmişdi. 1990-cı ilin 17 noyabrında Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə öz işinə başladı. Həmin sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı.

Azərbaycan Prezidenti cənab İlham Əliyev o dövrdə Naxçıvanda baş verən hadisələr barədə demişdir: ***"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək ulu öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir. O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi".***

1991-ci il sentyabrın 3-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında deputatların və iclas keçirilən binanın qarşısına toplaşan minlərlə insanın təkidi ilə ulu öndər Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bununla da, Azərbaycan tarixində ümummilli liderin adı ilə bağlı olan daha bir səhifə açıldı. Sessiyadakı ilk çıxışında ulu öndər öz taleyini xalqa tapşırdığını bildirərək demişdir: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ...Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan ümummilli lider Heydər Əliyev real düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə başlamışdır. 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıcı idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olunmuş, əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradılmış, Naxçıvanın müdafiə potensialı gücləndirilmiş, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası Naxçıvanda qoyulmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləmişdir. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildir. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Bu qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunmuşdur.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atılmış, ulu öndər 1992-ci ildə qonşu İran İslam Respublikasına və Türkiyə Cümhuriyyətinə səfərlər etmiş, bu zaman keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmışdı. İmzalanan protokollara əsasən, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuş, Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verilmiş, Sədərək və Culfa gömrük-keçid məntəqələri fəaliyyətə başlamışdı. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluqları fəaliyyətə başlamışdır.

Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də ümummilli liderimizin diqqət mərkəzində olmuşdur. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, böhranlı illərin gələcək inkişafa ünvanlanmış bu islahatları aqrar bölmədə irəliləyişlərə səbəb olmuşdur. Bu qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amilə çevrilmiş, Azərbaycanda torpaq islahatına məhz Naxçıvandan başlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov o dövrdə Naxçıvanda iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edərkən demişdir: ***"Bu dövrdə müstəqilliyin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırılmış, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edilmiş, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülmüşdü. Qonşu Türkiyə və İranla iqtisadi, mədəni, humanitar əlaqələr yaradılmışdı. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın Heydər Əliyev yoluna qayıdan ilk region olmaqla Azərbaycanda böyük nümunə gücünə malik idi".***

Hind siyasi xadimi Mahatma Qandi demişdir ki, "Dünyada xalqın inamını, etimadını qazanmaqdan, xalqın güvənc yeri olmaqdan böyük xoşbəxtlik yoxdur". Xalqın güvəncinə çevrilən ümummilli liderimizə 1992-ci ilin 16 oktyabrında Azərbaycan ziyalıları "Azərbaycan sizi gözləyir" adlı tarixi müraciət etdilər. Xalqın istək və arzularının, son ümidlərinin ifadəsi olan bu müraciətə ümummilli lider Heydər Əliyev həmin ayın 24-də mətbuatda dərc olunmuş "Yeni, müstəqil Azərbaycan uğrunda" sərlövhəli cavab məktubunda deyirdi: ***"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".*** 1992-ci il noyabrın 21-də Azərbaycanın müxtəlif bölgələrindən gələn 550-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Blokada çətinlikləri şəraitində yaşayan Naxçıvanda təməli qoyulan bu partiya hazırda öz sıralarında milli ruhlu insanları birləşdirən, müstəqillik, dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, vətənçilik ideyalarına mənsub olan kütləvi siyasi təşkilata çevrilmişdir.

Ulu öndərin Naxçıvana qayıtması, Ali Məclisin Sədri seçilməsi və bu vəzifədəki səmərəli fəaliyyəti təkcə muxtar respublikada yox, bütövlükdə Azərbaycan miqyasında ölkəmizin parlaq gələcəyinə olan inam hissini alovlandırmışdı. Azərbaycanın digər regionlarında yaşayan insanlar xalqımızın böyük oğlu Heydər Əliyevə teleqramlar, məktublar göndərir, xalqın üzləşdiyi bəlaların məhz onun müdrik və uzaqgörən siyasəti nəticəsində həll olunacağına inamlarını ifadə edirdilər. Xalqın inamının və sevgisinin əyani ifadəsi olan bu məktublarda, teleqramlarda o zaman Azərbaycanı "idarə edənlərin" özbaşınalığından, siyasi səriştəsizliklərindən, xalqın dərdinə şərik çıxmamalarından bəhs olunurdu. Ulu öndər Heydər Əliyev təkcə Naxçıvanda yox, Azərbaycanın digər regionlarında yaşayan həmvətənlərimizin də dərdlərinə şərik olmuş, onların problemlərinin həlli istiqamətində səy və bacarığını əsirgəməmişdir.

Ölkəmizdə baş verən proseslərin getdikcə təhlükəli bir hal aldığı, Azərbaycanın uçuruma yuvarlandığı bir vaxtda dahi şəxsiyyətin siyasi hakimiyyətə qayıdışı getdikcə zərurətə çevrilirdi. Xalq qəti əmin idi ki, ölkəni düşdüyü ağır siyasi böhrandan çıxarmağın, torpaqların itirilməsi təhlükəsindən xilas etməyin yeganə yolu ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışındadır.

Azərbaycanın məhvə sürükləndiyi bir vaxtda xalq yeganə ümid və xilas yolunu Naxçıvandan başlanan qurtuluşda – ümummilli liderimiz Heydər Əliyevin böyük siyasətə qayıdışında tapdı. 1993-cü ilin 9 iyununda ulu öndərimiz xalqın təkidli tələbi ilə Bakıya getdi, iyunun 15-də Ali Sovetin Sədri seçildi. Böyük siyasətə yenidən qayıdış yalnız bir amala – xalq və dövləti üzləşdiyi bəladan qurtarmaq məramına xidmət edirdi. Bu dövrdən etibarən ölkəmiz onu gözləyən bəlalardan qurtulmuş, Qurtuluşun Vətəni olan qədim Naxçıvan torpağında təməli qoyulan müstəqilliyimiz qorunmuş, möhkəmləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışının tarixi əhəmiyyətindən danışarkən demişdir: ***"Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz. Azərbaycanın müasir tarixi dəfələrlə sübut etmişdir ki, xalqın gücü ümummilli lider Heydər Əliyevdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin də gücü Azərbaycan xalqındadır. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu".***

Ulu öndərimiz qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırmış, qanunun aliliyi təmin olunmuş, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edilmiş, müasir idarəçilik sistemi yaradılmış, vətəndaş həmrəyliyi bərpa olunmuş,

*Ardı 3-cü səhifədə*

iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırılmışdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda atılmış mütərəqqi addımlar kimi tarixə düşmüş, ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmlənmiş, bütün sahələrdə böyük uğurlar qazanılmışdır. Böyük öndərimiz Azərbaycan naminə yaşadığı həyatın, mənalı ömür yolunun siyasi mübarizələrlə dolu olan anlarını göz önünə gətirərək deyirdi: ***“İndi... bütün həyatımı təhlil edərək görürəm ki, hər halda bir başlıca hadisə də var. O da bundan ibarətdir ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam”.***

Heydər Əliyev ideyaları, Heydər Əliyev yolu Naxçıvanda da yeni inkişaf erasının başlanmasına rəvac vermiş, muxtar respublikamızda bu siyasətin uğurla davam etdirilməsi nəticəsində əsl intibaha nail olunmuşdur. Son 18 ildə muxtar respublikanın keçdiyi inkişaf yolu ulu öndərin ideyalarına sadiqliyin təcəssümüdür.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən dövlət müstəqilliyimizin əsasının Naxçıvanda qoyulması qədim diyarda tarixən mövcud olmuş zəngin dövlətçilik ənənələrinin davamı kimi də təqdirəlayiqdir. Məhz ulu öndərin 1990-cı il iyulun 22-də Naxçıvan Muxtar Respublikasına gəlməsi və buradakı fəaliyyəti 70 illik imperiya əsarətinə son qoyan Azərbaycanın qurtuluş və müstəqillik tarixində mühüm mərhələdir. Bu tarixdən ötən 24 il ərzində ölkəmizin siyasi, iqtisadi, mədəni və digər sahələrdə qazandığı uğurlar Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Xalqımız bütün varlığı ilə inanır ki, ölkədə davam etdirilən bu siyasi xətt – Heydər Əliyev yolu ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı daha böyük zəfərlərə qovuşduracaqdır.

**“Şərq qapısı”**

*22 iyul Milli Mətbuat Günüdür*

# Milli mətbuatımız şərəfli tarixə və zəngin ənənələrə malikdir

**Bu gün milli mətbuatımızın yaranmasının 139-cu ildönümü tamam olur. 1875-ci il iyulun 22-də böyük maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin misilsiz səyləri ilə işıq üzü görmüş ilk milli qəzetimiz olan “Əkinçi” xalqa söz və qələmlə xidmət göstərməyin mükəmməl nümunəsi kimi ictimai-mədəni tariximizdə silinməz izlər qoymuşdur.**




“Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Bu amili yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Şərəfli tarixə və zəngin ənənələrə malik milli mətbuatımız Azərbaycan ictimai fikrinin inkişafında, xalqımızın milli-mənəvi təkamülündə mühüm rol oynamışdır. Milli azadlıq hərəkatının daim ön sıralarında getmiş Azərbaycan jurnalistikası cəmiyyət qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və həlli işinə əhəmiyyətli töhfələr vermişdir”.***

Milli mətbuatımız çox çətin, lakin şərəfli bir yol keçmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində xalqın oyanışını, özünüdərkini, milli ruhun bərpasını əsas amal seçən əksər qəzet və jurnallar ağır senzura şərtləri altında dərc olunmuş, qısa müddətdən sonra fəaliyyətləri dayandırılmışdır. Azərbaycanda azad və müstəqil mətbuatın yaradılması ulu öndərimizin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ölkəmizə rəhbərliyi dövründə ümummilli liderimiz kütləvi informasiya vasitələrinin cəmiyyət həyatındakı roluna yüksək qiymət vermiş, ölkəmizdə jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. Onun kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyi böyük diqqət və qayğı Azərbaycanda milli mətbuatın inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını şərtləndirmişdir.

Ulu öndərimizin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilmiş, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur. 1998-ci ildə Azərbaycanda ilk dəfə olaraq senzura ləğv edilmişdir. 1993-cü ildən ötən dövr ərzində ölkəmizdə kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə bağlı 50-yə yaxın qanun, fərman və sərəncamın qəbul olunması milli mətbuatın inkişafına göstərilən diqqətin nəticəsidir. 1999-cu il dekabrın 7-də “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun qəbulu mətbuatın hüquqi bazasının zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə olmuşdur. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər sonrakı dövrdə də davam etdirilmiş, “Məlumat azadlığı haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Ətraf mühitə dair informasiya almaq haqqında” Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkəti, sürətlə inkişaf edən internet resursları cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar. Ulu öndərimiz kütləvi informasiya vasitələrinin fəaliyyət istiqamətlərini müəyyənləşdirərək demişdir: ***“Hər bir kütləvi informasiya vasitəsi milli dövlət quruculuğu prosesində, vətəndaş cəmiyyətinin qurulmasında, milli və bəşəri dəyərlərin bərqərar edilməsində, ölkənin inkişafını təmin edən islahatların həyata keçirilməsində səmərəli surətdə iştirak etməli, həyatın güzgüsü kimi həqiqət carçısı olmalıdır. İnsanları yüksək ideallar, humanist vətəndaş və demokratik cəmiyyət uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir”.***

Ümummilli liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişafına ciddi diqqət yetirir. Ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin olunması, tam sərbəst şəraitdə yüzlərlə qəzet və jurnalın nəşri mətbu fəaliyyətin maneəsiz həyata keçirilməsinə yaradılmış şəraitin, mətbuata dövlət qayğısının bariz nümunəsidir. “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nın qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da dövlət başçısının bu sahədə atdığı uğurlu addımların məntiqi davamıdır. 2005 və 2010-cu illərdə Azərbaycan milli mətbuatının yaranmasının 130 və 135 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif edilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi, ötən il bir qrup jurnalistin mənzillə təmin olunması jurnalistlərin əməyinə verilən yüksək qiymətin göstəricisidir. Ölkə Prezidentinin 2012-ci il 4 iyun tarixli Sərəncamına əsasən, Azərbaycan milli mətbuatının banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər Həsən bəy Zərdabinin 170 illik yubileyi ölkə miqyasında qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında da kütləvi informasiya vasitələrinə böyük diqqət və qayğı göstərilir. Son 19 ildə bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş muxtar respublikanın kütləvi informasiya orqanlarını da əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli qayğısı yeni keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olmuşdur. Ali Məclis Sədrinin 2000-ci il 29 mart tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” Sərəncam regionda kütləvi informasiya vasitələrinin gələcək inkişafı istiqamətində yeni üfüqlər açmışdır. Bu gün muxtar respublikanın hər bir şəhər və rayonunun özünün mətbu orqanı vardır və onların dövriyyəliyi təmin edilmişdir. 2010-cu ildə “Şərq qapısı” qəzeti redaksiyası və Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verilmişdir. Artıq muxtar respublikamızda qəzetlər rəngli, yüksək poliqrafik keyfiyyətlə nəşr olunur. Ali Məclis Sədrinin 2011-ci il 21 iyul tarixli Sərəncamı ilə “Şərq qapısı” qəzeti əməkdaşlarının əməkhaqları orta hesabla 50 faizədək artırılmış, redaksiya yeni xidməti avtomobillərlə təmin olunmuşdur.

Bu sahədə qazanılan uğurlar eyni zamanda elektron medianı da əhatə edir. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası yenidən qurularaq istifadəyə verilmiş, komitədə yeni nəsil rəqəmsal teleradio avadanlıqları quraşdırılmışdır. “Kanal-35” televiziyasının, “Naxçıvanın səsi” radiosunun da fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Bu il “Kanal-35” televiziyasının 10 illik yubileyi qeyd olunmuş, “Kanal-35” televiziyasının və “Naxçıvanın səsi” radiosunun bir qrup əməkdaşı “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilmişdir. Muxtar respublikada Televiziya və Radio Şurasının, Mətbuat Şurasının yaradılması və fəaliyyətinin təmin olunması da bu sahədə atılan uğurlu addımların məntiqi davamı kimi yadda qalmışdır.

Bu uğurlar, ilk növbədə, muxtar respublika rəhbərinin mətbuata, jurnalist əməyinə verdiyi yüksək qiymətin təzahürüdür. Ali Məclisin Sədri kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsinə daim qayğı göstərməklə bərabər, həm də bu sahədə çalışanlara yüksək mənəvi dəstək verir. 2010-cu il yanvarın 14-də “Mətbuatın Dostu” fəxri adının diplomunun təqdimetmə mərasimində Ali Məclisin Sədri kütləvi informasiya vasitələrinin qarşıdakı dövrdə də uğurlu fəaliyyət göstərməsi, muxtar respublikanın güzgüsünə çevrilməsi üçün öz səyini əsirgəməyəcəyini, kütləvi informasiya vasitələrinin daim dövlət qayğısı ilə əhatə olunacağını bildirmişdir.

Yeni dövrün quruculuq və inkişaf tarixini yazmaq, milli maraqları daim uca tutmaq, cəmiyyət həyatına dərindən nüfuz etmək, qədim tariximizi, milli-mənəvi dəyərlərimizi yaşatmaq, maarifçilik işi aparmaq bu gün də muxtar respublika jurnalistləri qarşısında duran əsas vəzifələrdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Hər bir kütləvi informasiya vasitəsinin işçisi bilməlidir ki, o, bu günün gələcək nəsillərə daşıyıcısıdır. Ona görə də hər günün tarixi yazılmalı, gedən proseslər düzgün işıqlandırılmalıdır. Qloballaşan dünyada hər bir xalq, hər bir millət öz keçmişini qoruyub gələcək nəsillərə verməlidir”.***

**“Şərq qapısı”**

# II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilmişdir

*İyulun 20-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2014/2015-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq istəyən cari ilin məzunları üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirmişdir.*

İmtahan Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 54 binada təşkil olunmuşdur. Qeyd edək ki, ən yaşlı abituriyent 1990, ən gənc abituriyent isə 1997-ci il təvəllüdlüdür.

İmtahan bütün binalarda eyni vaxtda – saat $11^{00}$-də başlanmış və 3 saat davam etmişdir. Muxtar respublikada Naxçıvan şəhər 1, 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanlarda 1821 abituriyent iştirak etmişdir. İmtahana 174 nəzarətçi-müəllim, 15 imtahan rəhbəri cəlb olunmuşdur. Abituriyentlərin öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün bütün imtahan aparılan yerlərdə normal şərait yaradılmışdır.

İmtahan başlanmazdan əvvəl imtahan keçiriləcək məktəblərin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. 14 nömrəli tam orta məktəbin qarşısındayıq. Culfa rayon Əbrəqunus kənd tam orta məktəbinin məzunu Nuranə Məmmədliyə yaxınlaşırıq:

–Artıq səbirsizliklə gözlədiyim gün gəlib. Bir az həyəcanlıyam. Ancaq buna baxmayaraq, özümə çox güvənirəm. Sınaq imtahanlarında 600-dən yuxarı bal toplayırdım. Arzum iqtisadçı olmaqdır. İmtahanda yüksək bal toplayıb bu arzuma çatacağam.

Valideynlərdən Faiq Məmmədli deyir:

– Qızıma dəstək olmağa gəlmişik. Bir azdan imtahana girəcək. İmtahandan çıxana kimi burada onu gözləyəcəyik. Burada gözləyənlərə nümunəvi iaşə xidmətinin yaradılmasından çox razıyam və bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.



Abituriyentlərdən Songül Əliyeva III ixtisas qrupu üzrə imtahan verəcək. O, sınaq imtahanlarında keçid balını keçir. Həyəcanını gizlətməyərək deyir:

– Mən Ordubad rayon Gənzə kənd tam orta məktəbini bitirmişəm. İmtahana yaxşı hazırlaşmışam. Hər ay sınaq imtahanlarında iştirak etdiyim üçün artıq imtahan həyəcanına alışmışam. İnanıram ki, yaxşı nəticə göstərəcəyəm.

Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin qarşısında da həyəcanlı valideynlər, abituriyentlərlə həmsöhbət olduq. Abituriyentlərdən Faiq Həşimliyə yaxınlaşırıq. Onun dediklərindən:

– Mən Culfa rayon Yaycı kənd 1 nömrəli tam orta məktəbin məzunuyam. Sınaq imtahanlarında həmişə 600-dən yuxarı bal toplamışam. Həm məktəb kollektivi, həm də valideynlərim mənə çox güvənirlər. Çalışacağam ki, onların güvənini doğruldum.

Saatlar $11^{00}$-i göstərəndə imtahan başlayır. İmtahan qurtarana kimi biz də imtahanda müşahidələr aparırıq. Naxçıvan şəhər 1, 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanların gedişi zamanı abituriyentlər heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəltdilər. İmtahanların gedişinə nəzarət edən imtahan rəhbəri Fəxrəddin Abbasov bildirdi ki, abituriyentlərin öz bilik və bacarıqlarını göstərmək üçün ayrılan 3 saat ərzində imtahan otağında onların yüksək fəallığını müşahidə edib. Ümumiyyətlə, imtahanda təşkilatçılıq yüksək səviyyədə olub.

İmtahan başa çatdıqdan sonra bir neçə abituriyentlə həmsöhbət oldum. İmtahandan yenicə çıxmış Naxçıvan Qızlar Liseyinin məzunu Jalə Mirzəyeva ilə həmsöhbət oluram:

– Çox sevincliyəm. Çünki suallar mənə çox asan gəldi. Tarix fənnindən bütün sualları cavablandırdım. Ən böyük arzum tarix müəllimi olmaqdır. İmtahanda əsas amil olan sakitlik tam təmin edilmişdi. Bu da abituriyentlərin sualları dəqiq cavablandırmasına imkan verdi.

Qeyd edək ki, imtahanda təqdim olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında yerləşdirilib. Nəticələr elan olunduqdan sonra abituriyentlər imtahan nəticələri ilə TQDK-nın internet saytında və ya iş nömrələrini bütün mobil operatorlardan 7727 nömrəsinə göndərməklə tanış ola biləcəklər.

**Xəbərlər şöbəsi**

# Jurnalistika yaradıcı sənətdir, daim axtarış tələb edir



***Ömrünü mətbuata bağlayan, obyektivliyi hayat amalına çevirməyi, operativliyi, qələmə aldığı hər hansı mövzuya cəmiyyətin gözü ilə baxmağı jurnalist üçün ən böyük keyfiyyətlər sayan Səxavət Kəngərli 1991-2000-ci illərdə "Şərq qapısı" qəzetinin baş redaktoru olub. Hazırda təqaüddədir. Mətbuatın inkişafındakı xidmətlərinə görə "Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. Həsən bəy Zərdabi mükafatı laureatıdır. 2009-cu ildə isə ölkə Prezidentinin fərdi təqaüdünə layiq görülüb. Milli mətbuat bayramı ərəfəsində onunla görüşməyi, qəzetimiz üçün müsahibə götürməyi mənəvi borcumuz hesab etdik. İlk sualımız belə oldu:***

*– Ömrü boyu jurnalistika sahəsində çalışmış, bu sahədəki fəaliyyətinizə görə Azərbaycan Prezidentinin fərdi təqaüdünə layiq görülmüş təcrübəli jurnalist kimi sizin üçün mətbuat nədir?*

– Bu suala qısa olaraq belə cavab verərdim: Mətbuat mənim həyatımdır. 80 yaşımın 45 ilini bu sahəyə həsr etmişəmsə, deməli, bu, həqiqətən belədir. Mətbuatı çox haqlı olaraq cəmiyyətin güzgüsü adlandırırlar. Ona görə ki, mətbuat həyatımızın bütün sahələrinə nüfuz etmək qabiliyyətinə malikdir. İqtisadiyyat, siyasət, mənəviyyat, ədəbiyyat, səhiyyə, hüquq, bir sözlə, cəmiyyətin bütün sahələri mətbuatın əhatə dairəsindədir. Ona görə də mətbuatda çalışmaq, jurnalist olmaq hər bir insan üçün böyük xoşbəxtlikdir. Jurnalist isə dövrün, zamanın nəbzini tuta bilməlidir, daim axtarmaq, yenilik etmək ruhu ilə yaşamalıdır. Çünki mətbuat və jurnalistin vəzifəsi cəmiyyətə informasiya verməklə bitmir. Yayılan məlumatların keyfiyyəti və istiqaməti, ölkədəki ictimai həyatı obyektiv və bütün çalarları ilə operativ şəkildə əks etdirmək bu sahədə çalışanların peşə məsuliyyətinin göstəricisidir. Cəmiyyətdə mətbuatın nüfuzunu yüksəldən ən başlıca amil isə bəşəri və dövlətçilik dəyərlərinin formalaşması prosesində oynadığı xüsusi roldur.

Mətbuatın qarşısında duran vəzifələri saymaqla qurtaran deyil. Hər bir kütləvi informasiya vasitəsi milli dövlət quruculuğu prosesində, vətəndaş cəmiyyətinin qurulmasında, milli və bəşəri dəyərlərin qorunmasında, ölkənin inkişafını təmin edən islahatların həyata keçirilməsində yaxından iştirak etməli, həyatın güzgüsü kimi həqiqət carçısı olmalı, düzü-düz, əyrini-əyri kimi təqdim etməlidir. Yalnız bu halda həm mətbuat, həm də mətbuatda çalışan jurnalist nüfuz sahibi ola bilər.

*– Dəfələrlə söhbətlərdə bildirmisiniz ki, həyatınızın unudulmaz xatirələri içərisində məhz mətbuatda işlədiyiniz dövrdə ümummilli liderimiz Heydər Əliyevlə görüşləriniz xüsusi yer tutur.*

– Bəli, bu, həqiqətən belədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində biz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında işləmişik. Bütün kommunikasiya xətlərinin kəsildiyi bir dövrdə ulu öndərimizin bir amalı var idi: muxtar respublikanı erməni təcavüzündən qorumaq, bu qədim diyarın işğalının qarşısını almaq, naxçıvanlıların yaşamaq əzmini yüksəltmək. Belə bir ağır vəziyyətdə çıxış yolu tapmaq üçün gecə-gündüz yorulmaq bilmədən çalışan ümummilli liderimiz mətbuata da böyük diqqət yetirirdi. Çünki mətbuatın cəmiyyət həyatındakı rolunu yaxşı bilirdi. O, daim qəzetin fəaliyyəti ilə maraqlanır, muxtar respublikanın maddi vəziyyətinin son dərəcə ağır olmasına baxmayaraq, qəzetin nəşrinin davam etdirilməsinə hər cür maddi köməklik göstərir, onun keyfiyyətini yaxşılaşdırmaq, ideya-siyasi istiqamətini düzgün istiqamətləndirmək üçün çox qiymətli tövsiyələr verirdi. Qəzetin o dövrdə oxunaqlı çıxmasında bu tövsiyələrin böyük əhəmiyyəti olub. Dünya şöhrətli siyasətçi və dövlət xadimi olan belə bir insanın rəhbərliyi altında işləmək hər bir jurnalist üçün böyük xoşbəxtlik idi.

*– Siz həm sovet məkanında, həm də müstəqillik dövründə mətbuatda çalışmısınız. Bu dövrləri necə xarakterizə edərdiniz?*

– Bu dövrlərin bir-birindən yer və göy qədər fərqi var. Ancaq bir məsələni etiraf edim ki, sovetlər dönəmində də mətbuata diqqət yetirilirdi. Ona görə ki, mətbuat partiyalı mətbuat idi. Bu səbəbdən də partiyanın büdcəsindən mətbuata kifayət qədər vəsait ayrılırdı. Konkret olaraq, mətbuat heç bir ciddi problemlə üzləşmirdi. Ancaq bir məsələni deyim ki, partiya mətbuatı birtərəfli xarakter daşıdığı üçün yalnız və yalnız kommunizm ideyalarının təbliğinə xidmət edirdi. Kommunizm ideyaları isə boş və mənasız olduğundan dərc edilən yazıların inandırıcı, təsiredici gücü olmurdu.

Sovet dönəmində çox ciddi, kəskin senzura var idi. Azad sözü, sərbəst fikri boğan da məhz bu senzura idi. Məsələn, bir müəssisə haqqında dərc olunan məqalədə nəinki həmin müəssisənin istehsal gücünü göstərmək, hətta müəssisənin bir ayda istehsal etdiyi məhsulun həcmini belə göstərmək qəti qadağan olunurdu.

Bu gün isə ölkəmizdə, sözün əsl mənasında, azad, demokratik mətbuat bərqərar olub. Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra mətbuata qarşı tətbiq edilən senzura ləğv edildi. Söz azadlığına, demokratik mətbuata geniş meydan verildi. İndi mətbuat üçün qadağan olunmuş heç bir mövzu yoxdur. Nə istəyirsən, yaz, ancaq yazdıqların real həqiqəti əks etdirməlidir. Hər bir jurnalistin öz daxili senzurası olmalıdır. O, nədən necə yazmağı, nədən yazmamağı özü yaxşı bilməlidir.

*– Bu gün digər sahələr kimi, mətbuat da hərtərəfli qayğı əhatəsindədir. İstərdik ki, bu barədə danışasınız.*

– Mətbuata qayğı, ilk növbədə, özünü söz azadlığında göstərir. Əsl söz azadlığı olan yerdə mətbuat üçün heç bir maneə ola bilməz. Bir qədər əvvəllərə qayıtmaq istəyirəm. Ölkəmiz müstəqillik qazandıqdan sonra partiya vəsaiti ilə maliyyələşən kütləvi informasiya vasitələrinin bu vəsaitdən məhrum olmaları nəticəsində mətbuatın vəziyyəti son dərəcə ağırlaşdı. "Hər bir qəzet özü-özünü maliyyə vəsaitləri ilə təmin etməlidir" şüarını ortaya atan AXC-Müsavat iqtidarı mətbuatı taleyin ümidinə buraxdı. Qəzeti hazırlayıb çapa göndərmək üçün kağız alınması, redaksiya əməkdaşlarına əməkhaqqı verilməsi üçün vəsait çatışmırdı. Biz qəzetin gündəlik nəşrini həftədə bir dəfəyə endirsək də, yenə də çətinliklərlə üzləşirdik.

Xoşbəxtliyimiz onda oldu ki, o ağır dövrdə Heydər Əliyev kimi görkəmli dövlət xadimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçildi. AXC-Müsavat iqtidarı tərəfindən qəzetə pul vəsaitinin ayrılması qəti olaraq qadağan edilsə də, ulu öndərimiz Heydər Əliyev qəzetin nəşrinin davam etdirilməsi üçün maliyyə orqanlarını vəsait ayırmağa məcbur edirdi. Əgər o vaxt ulu öndərimiz Naxçıvana rəhbərlik etməsəydi, "Şərq qapısı" qəzetinin nəşrində azı bir il, il yarım fasilə yaranacaqdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Ali Məclisin Sədri seçildikdən az müddət sonra qəzetin öz nəşrini davam etdirməsi üçün 100 milyon manat ayrıldı. Bu vəsait ilbəil artırılaraq 120 milyona çatdırıldı. Qəzet belə bir qayğı ilə ilk dəfə idi ki, rastlaşırdı. Ulu öndərin mətbuata göstərdiyi qayğı sonrakı illərdə davam etdirilməyə başladı və bu gün də mətbuat işçiləri belə qayğı əhatəsindədirlər.

1996-cı il noyabr ayının 26-da "Şərq qapısı" qəzetinin ilk nömrəsinin çapdan çıxmasının 75 illiyi ilə əlaqədar olaraq C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında böyük yubiley tədbiri keçirildi. Ulu öndərimiz Heydər Əliyev göndərdiyi teleqramla qəzetin fəaliyyətinə bir daha yüksək qiymət verdi və redaksiya kollektivini səmimi təbrik etdi. Tədbir başa çatdıqdan sonra Ali Məclisin Sədri redaksiyanın kollektivi ilə görüşdü, bizi bir daha yubiley münasibətilə təbrik etdi. Yubiley gününün səhərisi isə qəzetin müasir poliqrafik tələblərə cavab verən səviyyədə nəşr edilməsi üçün redaksiyaya kompüter dəsti hədiyyə olundu.

Ali Məclis Sədrinin qəzetə göstərdiyi qayğılardan biri də 2000-ci il mart ayının 29-da imzaladığı "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamıdır. Sərəncama əsasən, muxtar respublikada fəaliyyət göstərən bütün mətbuat orqanları normal iş şəraiti ilə təmin edilmiş, onların maddi-texniki bazaları gücləndirilmiş, əməkdaşların əməkhaqları artırılmışdır. Müntəzəm olaraq davam edən qayğının nəticəsidir ki, "Şərq qapısı" qəzeti və Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi üçün müasir redaksiya-nəşriyyat kompleksi tikilib.

*– Azərbaycan mətbuatının ildönümü ərəfəsində gənc həmkarlarınıza arzularınız...*

– Mən gənc həmkarlarıma, konkret olaraq, öz arzularımı ulu öndərimiz Heydər Əliyevin bu çətin peşə sahiblərinin fəaliyyətinə verdiyi yüksək qiymətlə çatdırmaq istəyirəm: ***"Jurnalistika çətin sənətdir. Bunu etiraf etmək lazımdır, asan sənət deyildir. Başqa bir yerdə, başqa bir peşə sahibi gəlib öz işində oturub işləyir, müəyyən saat qurtarandan sonra evinə gedir... Amma jurnalistin iş yeri yoxdur. Qəzetin redaksiyası da jurnalistin iş yeri deyildir. Çünki o, redaksiyada otursa, elə ancaq yuxarıya baxsa, bir şey yaza bilməyəcək, fəaliyyət də göstərə bilməyəcək. Demək, jurnalist gərək daim cəmiyyətlə əlaqədə olsun, insanlarla əlaqədə olsun və müxtəlif yerlərlə təmasda olsun ki, istədiyi məlumatı ala bilsin və onların əsasında istədiyi sahədə öz məqalələrini, öz əsərlərini yaza bilsin. Bu, asan iş deyildir. Mən bunu bilirəm və öz fikrimi başqalarına da bildirmək istəyirəm. Ona görə də biz gərək jurnalistlərə kömək edək".***

Bundan artıq daha nə demək olar? Bu gün mətbuatda, kütləvi informasiya vasitələrində çalışan təcrübəli jurnalistlər bu sahəni seçən gənclərə köməkliklərini əsirgəməməlidirlər. Çünki jurnalistika yaradıcı sənətdir, daim axtarış tələb edir. Bu amili gənc müxbirlər də unutmamalıdırlar. Yalnız belə olan halda yaxşı qəzetin nəşrinə nail olmaq mümkündür. Bu isə həm dövlətçiliyimizə, həm də müstəqilliyimizə, inkişafımıza və xalqımıza yaxşı xidmət deməkdir və bunu mən ən şərəfli bir vəzifə hesab edir, bu yolda mətbuat işçilərinə müvəffəqiyyət arzulayıram. Sonda bütün həmkarlarımı Milli Mətbuat Günü münasibətilə ürəkdən təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Müsahibəni apardı:**
**✍ Sara ƏZİMOVA**

## Muxtar respublikada 32 min 84 hektar sahənin taxılı tədarük olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər cari ilin ötən dövrü ərzində də davam etdirilərək bir sıra uğurlu nəticələrə nail olunub. Əldə edilən nailiyyətlərdə bir neçə amil başlıca rol oynayıb. Əkin sahələrinin suvarılmasını təmin etmək üçün meliorasiya tədbirləri diqqətdə saxlanılıb, məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı xeyli yaxşılaşdırılıb. Muxtar respublikaya müxtəliftəyinatlı kənd təsərrüfatı texnikalarının gətirilməsi davam etdirilib. Ötən dövr ərzində məhsul istehsalçıları 3765,6 ton mineral gübrə ilə təmin olunublar. Proqramın qəbul olunduğu 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə bitkiçilik məhsullarının həcmi 3 dəfə artaraq 46 milyon 419 min manata çatdırılıb. Bütün bunlar strateji məhsul sayılan taxıl istehsalına da öz təsirini göstərib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, 2014-cü ilin məhsulu üçün 35749,7 hektar sahədə taxıl əkilib. Bunun da 29697,7 hektarı payızlıq, 6052 hektarı isə yazlıq taxıldır. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 425,7 hektar çoxdur. Taxıl zəmilərinin 26274,1 hektarında buğda, 9475,6 hektarında isə arpa əkilib. Sahələrdə bol məhsul yetişdirilib. İyul ayının 21-dək olan məlumata görə, 32 min 84 hektar sahənin taxılı tədarük olunub. Hazırda taxıl biçini davam edir. Rayonlarda yaradılmış qərargahlar məhsul istehsalçılarının çətinliklərlə rastlaşmamaları üçün bütün lazımi tədbirləri həyata keçirirlər. Onu da qeyd edək ki, əkin sahələrində 91 kombayndan istifadə olunur.

*Taxıl biçini haqqında məlumat, hektarla*

| | Ümumi əkin sahəsi | o cümlədən | | Biçilən sahə | o cümlədən | | Biçilən sahənin ümumi əkin sahəsinə nisbəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | | buğda | arpa | | buğda | arpa | |
| Naxçıvan şəhəri | 1229,1 | 1024,6 | 204,5 | 1158,0 | 960,0 | 198,0 | 94,2 |
| Şərur rayonu | 9184,1 | 7313,8 | 1870,3 | 8760,0 | 6940,0 | 1820,0 | 95,4 |
| Babək rayonu | 10364,8 | 7777,8 | 2587,0 | 9315,0 | 6955,0 | 2360,0 | 89,9 |
| Ordubad rayonu | 2147,9 | 1307,7 | 840,2 | 2125,0 | 1295,0 | 830,0 | 98,9 |
| Culfa rayonu | 5085,6 | 4046,2 | 1039,4 | 4608,0 | 3610,0 | 998,0 | 90,6 |
| Kəngərli rayonu | 4277,0 | 2647,2 | 1629,8 | 3587,0 | 1990,0 | 1597,0 | 83,9 |
| Şahbuz rayonu | 1331,0 | 1010,3 | 320,7 | 450,0 | 250,0 | 200,0 | 33,8 |
| Sədərək rayonu | 2130,2 | 1146,5 | 983,7 | 2081,0 | 1100,0 | 981,0 | 97,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi** | **35749,7** | **26274,1** | **9475,6** | **32084,0** | **23100,0** | **8984,0** | **89,7** |

Taxılın məhsuldarlıq göstəricisi muxtar respublikanın şəhər və rayonları üzrə bir hektardan orta hesabla 20-31 sentner intervalında müşahidə olunmaqdadır. Taxıl biçinini itkiyə yol verilmədən mütəşəkkil qaydada başa çatdırmaq üçün əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri bəhrəsini verir.

### İtmişdir

Naxçıvan şəhəri, Y.Məmmədəliyev küçəsi, ev 28-də yaşamış Hüseynova Fatma Məhi qızının adına olan 4218 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Qoşadizə kənd sakini Əliyev Novruz Əbdülrəhman oğlunun adına olan JN-237 ^A^ inventar nömrəli, 10307018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, A.Cəlilov küçəsi, bina 17, ev 40-da yaşayan Məmişov İsmayıl Hacı oğlunun adına olan 2013-cü il aprelin 18-də Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0030305 seriya nömrəli əmlakın yüklülüyü barədə çıxarış itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Səfər Səfərov, Sadıq Abbasov və Əbülfəz Əsgərli yaxın dostları **ABBAS MEHDİYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 624